

Barat Vüsal

ədalət.- 20 oktyabr.- 2020

# MƏNİM ÇANAQQALAM

*Türkə şərəf gətirib "Çanaqqala savaşı",*
*Türkün xeyrinə edib Allahtəala savaşı.*
*Mənim də, mən türkün də belə ola savaşı,*
*Almamış öləmmərəm mən öz sənət qalamı,*
*Yazmamış öləmmərəm mən öz "Çanaqqalam"ı!*

*Mən də son əsgər kimi mərmini atacağam,*
*Düşməni bir-birinə görərsən, qatacağam!*
*Mən arzuma bilirəm, haq-nahaq çatacağam,*
*Al qanımla yuyacam qan fışqıran yaramı,*
*Yazmamış öləmmərəm mən öz "Çanaqqalam"ı!*

*Gərək ayaqda deyil, gərək ürəkdə olum,*
*Təki heç vaxt susmayıb torpaq deməkdə olum!*
*Dönüb elə özüm də bayrağım rəngdə olum,*
*Görməmiş öləmmərəm mən öz "Bayraq" qalamı!*
*Yazmamış öləmmərəm mən öz "Çanaqqalam"ı!*

*Ay namərd, yenədəmi sən qorxudan ölürsən,*
*Utanmazsan, bilirəm lap yalvarıb təlisən.*
*Mən hələ sərkərdəyəm, ölməmişəm, görürsən,*
*Böyüdürəm döyüşə mən Mərd, mən Dərd balamı,*
*Yazmamış öləmmərəm mən öz "Çanaqqalam"ı!*

*Qara rənglə yazmayaq Şuşanı, ya Laçını,*
*Yazaq elə rənglə ki, qoy rəngləri açılsın.*
*Gərək bütün rənglərdən zəfər rəngi saçılsın,*
*Yox, qalmağa qoymaram mən bu sayaq qaranı...*
*Yazmamış öləmmərəm mən öz "Çanaqqalam"ı!*

*Çalarıq səngərlərə dola-dola zəfəri,*
*Gətiriərəm, gətiriər, vallah yola, zəfəri!*
*Qoy dönüb təkrar olsun "Çanaqqala zəfəri",*
*Şair, mürəkkəbə yox, batır qana qələmi...*
*Yazmamış öləmmərəm mən öz "Çanaqqalam"ı!*